Caucasus Journal of Humanities and Social Sciences

Qafqaz Hümanitar və Sosial Elmlər Jurnalı

p-ISSN: 3135-9981 e-ISSN: 3135-999X

November 2026; volume: 1; issue: 1; serial: 1 Noyabr 2026; cild: 1; say: 1; nömrə: 1

AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFININ TARİXİ-LİNQVİSTİK ASPEKTLƏRİ

https://doi.org/10.69043/c0kmb489

Sevinc SADIQOVA

fil.f.d., dos. Azərbaycan Dövlət Pedaqoji Universiteti
Assoc. Prof. Azerbaijan State Pedagogical University

Baku | Azerbaijan
sevincsadigova@gmail.com
https://orcid.org/0000-0001-8720-3262

Research article **Araşdırma əqaləsi**

Date of Submission: 20.09.2026
Date of Acceptance: 21.10.2026
Date of Publication: 20.11.2026
Plagiarism Checks: Yes
Conflicts of Interest: The author(s) has no conflict of interest to declare.
Ethical Statement: It is declared that scientific and ethical principles have been followed while carrying out and writing this study and that all the sources used have been properly cited.

Copyright & License: Authors publishing with the journal retain the copyright to their work licensed under the CC BY-NC 4.0.

Müraciət tarixi: 20.09.2026
Qəbul tarixi: 21.10.2026
Nəşr tarixi: 20.11.2026
Plagiat yoxlaması: Bəli
Maraqların toqquşması: Bildirilməyib.

Etik bəyan: Bu çalışmanın ərsəyə gəlməsi prosesində elmi və etik prinsiplərə riayət olunduğu və istifadə olunan bütün mənbələrin ədəbiyyat bölməsində göstərildiyi müəllif (lər) tərəfindən bəyan olunmuşdur.

Müəllif hüquqları: Müəlliflər jurnalımızda dərc olunan məqalələrinin müəlliflik hüquqlarına CC-BY-NC 4.0. lisenziyası əsasında sahibdirlər.

Citation/İstinad: Sadıqova, S. (2026). Azərbaycan ədəbi dilinin təşəkkülü və inkişafının tarixi-linqvistik aspektləri. *Caucasus Journal of Humanities and Social Sciences*, 1(1), 39-50. https://doi.org/10.69043/c0kmb489

Azərbaycan ədəbi dilinin təşəkkülü və inkişafının tarixi-linqvistik aspektləri

Xülasə: Ədəbi dil ümumxalq dili əsasında təşəkkül tapmış, müəyyən normalara salınmış dildir. Ədəbi dilin spesifikası ondadır ki, o, həm lüğət tərkibi baxımından, həm də qrammatik quruluşuna görə normalaşdırılmış dildir. Ədəbi dilin təşəkkül tapması bir çox hallarda ümumxalq dilinin özünün qanunauyğun inkişafının nəticəsi kimi meydana çıxır. Ədəbi dili səciyyələndirən başlıca əlamətdar cəhətlər onun zəngin lüğət tərkibinə, mükəmməl qrammatik struktura və üslublar sisteminə malik olmasıdır. Zəngin və inkişaf etmiş ədəbi dili olmayan xalqın zəngin və inkişaf etmiş mədəniyyətinin olmasını təsəvvür etmək çox çətindir. Xalqın milli mədəni nailiyyətləri nə qədər yüksəkdirsə, onun ədəbi dili də bir o qədər cilalanmış, zəngin və safdır. Xalqın təfəkkürü, mədəniyyəti, dünyagörüşü ədəbi dildə sanki "qeydə alınır", onun vasitəsilə ifadə olunur. Bu mənada ədəbi dil problemi nəhəng ümumxalq əhəmiyyətə malikdir. Ədəbi dil tarixi kateqoriyadır, cilalanmanın dərəcəsi, seçmənin ciddiliyi nəinki müxtəlif ədəbi dillərdə, hətta eyni dilin müxtəlif tarixi dövrlərində eyni olmaya bilər.

Hər hansı dilin tarixinin öyrənilməsi üçün yazılı abidələr birbaşa mənbələrdir. Ancaq yazılı abidələrin də özünə görə müəyyən çatışmayan cəhətləri vardır ki, bunlar bu və ya digər dil hadisəsinin tədqiqi zamanı tədqiqatçıdan çox ehtiyatlı olmağı tələb edir. Bu vəziyyət digər bir vacib və kifayət qədər etibarlı mənbəyə – tədqiq olunan dilin dialektlərinə müraciət etməyə məcbur edir. Xüsusən də vaxtilə yazısı olmayan və ya yazılı abidələri çox az qorunub saxlanan dillər üçün dialekt məlumatları xüsusi əhəmiyyət kəsb edir. Lakin hətta dil çoxsaylı yazılı abidələrə malikdirsə belə, o zaman da dialektlər öz dəyərini itirmir, əksinə tədqiqatçının əsaslana biləcəyi etibarlı mənbəyə çevrilir. Müasir dilçilikdə dillərin və dialektlərin yaranma yolları haqqında iki əsas fikir geniş yayılmışdır. Dillər və dialektlər diferensiasiya və inteqrasiya yolu ilə yarana bilər.

Açar sözlər: dilçilik, ədəbi dil, dilin tarixi, dialekt, diferensiasiya, inteqrasiya.

Historical-linguistic aspects of the formation and development of the Azerbaijani literary language

Abstract: The literary language is a language that has taken shape based on the common national language and is governed by established norms. Its distinctive feature lies in the fact that it is standardized in terms of both its vocabulary and grammatical structure. The formation of a literary language often emerges as a result of the natural, systematic development of the common national language itself. The defining characteristics of a literary language include a rich vocabulary, a

refined grammatical structure, and a system of stylistic varieties. It is very difficult to imagine a people possessing a rich and developed culture without a rich and developed literary language. The greater a people's national cultural achievements, the more refined, rich, and pure its literary language becomes. A people's mindset, culture, and worldview are, as it were, "recorded" in the literary language and expressed through it. In this sense, the issue of literary language is of immense significance to the entire nation. The literary language is a historical category; the degree of refinement and the rigor of selection may vary not only between different literary languages but even across different historical periods of the same language.

Written records serve as direct sources for studying the history of any language. However, these records have certain inherent limitations that require the researcher to exercise great caution when investigating specific linguistic phenomena. This situation necessitates turning to another important and highly reliable source: the dialects of the language under study. Dialect data is of particular importance, especially for languages that historically lacked a writing system or have few preserved written records. However, even when a language possesses numerous written records, dialects do not lose their value; on the contrary, they become reliable sources upon which researchers can draw. In modern linguistics, two main theories regarding the origins of languages and dialects are widely accepted: languages and dialects can emerge through processes of differentiation and integration.

Keywords: linguistics, literary language, history of the language, dialect, differentiation, integration.

Giriş

Dünyada mövcud olan xalqların sosial-mədəni, elmi, ictimai-siyasi inkişafından asılı olaraq, onların ədəbi dili formalaşır və inkişaf edir. Ədəbi dil ümumxalq dili əsasında təşəkkül tapmış, müəyyən normalara salınmış dildir. Ədəbi dilin spesifikası ondadır ki, o, həm lüğət tərkibi baxımından, həm də qrammatik quruluşuna görə normalaşdırılmış dildir. Dialektlərdən, jarqonlardan, həmçinin sadə nitq vasitələrindən fərqli olaraq, ədəbi dili tarixən inkişaf etmiş ədəbi norma olmadan təsəvvür etmək olmaz. O, ədəbi dil və onun üslubları üçün tipik olan sözlərin və onların mənalarının (leksik-semantik normalar), morfoloji strukturların və sintaktik konstruksiyaların (qrammatik normalar), həmçinin nitq vasitələrinin istifadəsinin üsul və vasitələrinin, bədii yaradıcılıq vasitələrinin yaradılması metodlarının (üslubi normalar), vahid tələffüzün müəyyənləşdirilməsi və qanuniləşdirilməsi üçün mövcuddur. “Ədəbi dil – normalaşdırılmış dildir. Ədəbi dilin inkişafının müəyyən mərhələsində fəaliyyət göstərən sözlərin, qrammatik formaların isti-

fadə olunması qaydaları, tələffüz və düzgün yazı qaydaları dilçilikdə norma adlanır" (Sovremennyi russkii yazyk, 1976).

Zəngin və inkişaf etmiş ədəbi dili olmayan xalqın zəngin və inkişaf etmiş mədəniyyətinin olmasını təsəvvür etmək çox çətindir. Xalqın milli mədəni nailiyyətləri nə qədər yüksəkdirsə, onun ədəbi dili də bir o qədər cilalanmış, zəngin və safdır. Xalqın təfəkkürü, mədəniyyəti, dünyagörüşü ədəbi dildə sanki "qeydə alınır", onun vasitəsilə ifadə olunur. Bu mənada ədəbi dil problemi nəhəng ümumxalq əhəmiyyətə malikdir. Ədəbi dil tarixi kateqoriyadır, cilalanmanın dərəcəsi, seçmənin ciddiliyi nəinki müxtəlif ədəbi dillərdə, hətta eyni dilin müxtəlif tarixi dövrlərində eyni olmaya bilər.

Ədəbi dil anlayışı

Ədəbi dil ümumxalq dilindən təcrid olunmamışdır, əksinə, bir qayda olaraq ədəbi dil ümumxalq dili ilə sıx bağlıdır və onunla eyni mənbədən qidalanır. Ədəbi dilin təşəkkül tapması bir çox hallarda ümumxalq dilinin özünün qanunauyğun inkişafının nəticəsi kimi meydana çıxır. Ədəbi dili səciyyələndirən başlıca əlamətdar cəhətlər onun zəngin lüğət tərkibinə, mükəmməl qrammatik struktura və üslublar sisteminə malik olmasıdır. "Ədəbi dilin yaranması zəruri tarixi-linqvistik prosesin nəticəsidir... Ədəbi dil – ədəbi danışıq, mədəni danışıq formasında ümumxalq bazası əsasında yaranır və formalaşır" (Qurbanov 2004, s.139).

Ədəbi dilin xüsusiyyətini, spesifikasını, adətən, seçmədə görürlər, bir qisim dil faktları qəbul olunur, digərləri isə rədd olunur, ədəbi dilə buraxılmır. Ədəbi dil kateqoriyaları özünəməxsus şəkildə qruplaşdırır, onları müəyyən məqsədlər üçün seçir. "Ədəbi dil öz bünövrəsində - söz ustadları tərəfindən cilalanmış və yaradıcı şəkildə zənginləşdirilmiş ümumxalq dilidir, buna görə də onu xalqın nitq mədəniyyətinin ən yüksək nailiyyəti kimi nəzərdən keçirmək zəruridir. Bu, ümumxalq dilinin ən yüksək formasıdır, görkəmli söz ustadları başda olmaqla bütün xalqın nitq yaradıcılığının nəticəsidir. Ədəbi ifadənin vasitələri və normaları dilin bütün daşıyıcıları tərəfindən sadəcə olaraq yaradılmır, həm də çox əhəmiyyətlidir ki, böyük mədəni dəyər kimi cəmiyyət tərəfindən diqqət və qayğı ilə qorunur" (Efimov, 1967, s. 5).

Ədəbi dilin nə zaman yaranması məsələsi də həmişə dil tarixi araşdırıcılarının diqqət mərkəzində olmuşdur. "Adətən, belə hesab etmək qəbul olunmuşdur ki, ədəbi dil yazının meydana çıxması ilə əlaqədar yaranmışdır, belə ki sonuncu, öz növbəsində, ədəbi dilin inkişafı ilə sıx bağlıdır. Lakin ədəbi dil yalnız yazılı formaya deyil, həm də şifahi formaya malikdir. Şifahi danışıq forması, şübhəsiz ki, yazılı dilin meydana çıxmasından xeyli əvvəl mövcud olmuşdur. Buna görə də tarixi planda ədəbi dilin şifahi və yazılı formaları və onların bir-birinə münasibəti öyrənilir" (Sovremennyi tatarskii literaturnyi yazyk, 1969, s. 14). Lakin şifahi ədəbi dil

anlayışı haqqında bir sıra dilçilərin fikirləri fərqlidir: V.V.Vinoqradov şifahi poeziyanın dilini ədəbi dil saymamış (Obshchee yazykoznanie, 1970, s. 507), A.S.Çikobava şifahi dili qəbul etməmiş (Chikabova, 1953, s. 121), A.İ.Yefimov ədəbi dilin yalnız yazı olduğu zaman mövcud ola biləcəyi fikrini bildirmişdir (Efimov, 1967, s. 8).

Bir qayda olaraq, yazısız ədəbi dillər olmur. Ədəbi dilin formalaşması, onun vasitələrinin və normalarının cilalanması yazının yaranması dövründən başlanmışdır. Əvvəllər mövcud olmuş şifahi-poetik yaradıcılıq ənənələrinə gəldikdə isə, onlar tarixdən əvvəlki hal kimi, nitq yaradıcılığı prosesi kimi, dil-üslub dəyərlərinin toplanması kimi nəzərdən keçirilməlidir, onlar olmadan nümunəvi dil kimi nəzərdən keçirilən ədəbi dilin meydana çıxması mümkün deyildir. Bundan əlavə, şifahi poetik yaradıcılığın dili müxtəlif üslublar sisteminin, həmçinin rəsmi-işgüzar, epistolyar və b. üslubların inkişaf etdiyi ədəbi dillə heç cür eyniləşdirilə bilməz. Beləliklə, ədəbi dil - sözün geniş mənasında ədəbiyyatın (bədii, elmi, publisistik və s.) dilidir; onun spesifik keyfiyyətləri və adının özü də bununla izah olunur. Daha sonra müəllif fikirlərini davam etdirərək yazır ki, ədəbi dilin formalaşması və inkişafında yazının əhəmiyyətini qiymətləndirmək çətindir. O, uzun əsrlər boyunca yaradılmış və toplanmış sözün milli mədəni dəyərini qorumağa imkan verir; o, dilin dayanıqlığına şərait yaradır, onun tarixi inkişafının bütün yolunu əks etdirir, ədəbi ifadə tərzinin daha həyati ənənələrinin yaranmasına və formalaşmasına və onların kütləviləşməsinə yardım edir. Ədəbi norma anlayışının özü tarixən formalaşmış və yazıyla möhkəmləndirilmiş nümunəvi ifadə tərzinin üsul və vasitələrinin ənənəsi olmadan təsəvvür edilməzdir.

Aydın görünür ki, dilçilik ədəbiyyatında ədəbi dil anlayışı yazı ilə birbaşa əlaqələndirilir, onların paralel şəkildə, hətta bir-birindən ayrılmaz şəkildə mövcud olması fikri əsas götürülür: "Ədəbi yaxud ədəbi-yazılı dil müxtəlif tarixi dövrlərdə, müxtəlif formalarda və növlərdə mövcuddur. Bu, həmişə bu və ya digər dərəcədə işlənilmiş, qanuniləşdirilmiş, düşünülmüş, işlənmə qaydalarına çox və ya az dərəcədə tabe olan bir dildir" (Stepanov, 1974, s. 193).

Ədəbi dil ilə bağlı deyilmiş fikirləri ümumiləşdirərək Ə.Dəmirçizadə qeyd edir ki: "Bəziləri ədəbi dil dedikdə, ancaq yazılı dili anlamışlar, şifahi ədəbi dilin də ola biləcəyini ağıllarına belə gətirməmişlər. Buna görə də ədəbi dil və onun inkişafı dedikdə, ancaq yazılı ədəbiyyatın, yazılı sənədlərin, nəhayət, kitabələrin dilini tədqiq etməkdən uzağa getməmişlər. Belə anlayış nəticəsində "yazısı olmayan xalqların ədəbi dili olmaz" kimi yanlış anlayış meydana çıxmış, yaxud bu və ya digər xalqın ədəbi dilinin başlanğıcı həmin xalqın yazıya malik olduğu dövrdən hesab edilmişdir" (Dəmirçizadə, s. 9). "Ədəbi dilə verilən izahlardakı norma, işlənilmiş forma, qanuniləşdirilmə kimi əməliyyatlar göstərir ki, ədəbi dil müəyyən dərəcədə süni (düzəltmə mənasında) səciyyə daşıyır. Deməli, ədəbi dilə təsir göstərmək, onu dəyişmək mümkündür. Əslində, ictimai, mədəni mühitin dəyişməsi

ədəbi dilə çox vaxt öz ciddi təsirini göstərir. Bu cəhətdən Azərbaycan dilinin tarixi səciyyəvi misal ola bilər" (Axundov, 1990, s. 99).

Azərbaycan ədəbi dili

Azərbaycan ədəbi dili haqqında danışmazdan öncə qeyd etmək lazımdır ki, Azərbaycan dilçiləri ədəbi dildən bəhs edərkən onu daha çox tarixi aspektdə araşdırmışlar. Ədəbi dilə həsr olunmuş əsərlər "Azərbaycan ədəbi dilinin tarixi" (Ə.Dəmirçizadənin, T.Hacıyevin, N.Xudiyevin və b.-nın əsərləri) adlandırılmış və araşdırmalar da məhz bu istiqamətdə aparılmışdır. Müqayisə üçün deyək ki, rus dilçiliyində ədəbi dilin tarixi ilə yanaşı, ümumiyyətlə ədəbi dil məsələlərinə həsr olunmuş əsərlər də mövcuddur. Bu qəbildən olan tədqiqatlara V.V.Vinoqradovun (1967), R.A.Budaqovun (1967) və s.-ni misal göstərmək olar. Yalnız son dövrlərdə Azərbaycan ədəbi dilin ümumi məsələlərinə həsr olunmuş tədqiqatlar meydana çıxmışdır.

Azərbaycan ədəbi dili tarixinin tədqiqatçılarının əksəriyyəti belə bir qənaətə gəlmişlər ki, Azərbaycan türkcəsi formalaşdığı zamanlarda artıq ədəbi dilin də müəyyən ünsürləri meydana çıxırdı. T.Hacıyev yazır: "Ədəbi dil nə zaman yaranıb? İlk əmək nəğməsi, ilk atalar sözü, ilk şeir, ilk mif-əfsanə yaranandan ədəbi dil başlayır... Ancaq bizim haqqında danışdığımız şəkildə ədəbi dil insanlığın müəyyən inkişaf səviyyəsində, müəyyən mədəni yüksəlişin məhsuludur, dövlətlərin yaranması, dövlətlər arasında yazışmaların başlanması, ümumiyyətlə, yazılı nitqin qeydə alınması ilə ictimai-mədəni hadisə kimi, ədəbi dil müəyyənləşir" (Hacıyev, 2012, s. 15).

Ə.Dəmirçizadə Azərbaycan ədəbi dilinin inkişaf tarixini üç dövrə bölməyi münasib bilmişdir: "I.Ümumxalq dili əsasında Azərbaycan ədəbi dilinin formalaşıb inkişaf etməsi dövrü. II.Azərbaycan milli dili əsasında ədəbi dilin sabitləşməsi dövrü. III.Azərbaycan ədəbi dilinin dövlət dili kimi yenidən qurulması və sosialist milli dili əsasında inkişaf etməsi dövrü - sovet dövrü." (Dəmirçizadə, 1979, s. 100). Azərbaycan ədəbi dilini dövrləşdirən N.Xudiyev Ə.Dəmirçizadədən fərqli olaraq, yeni dövrləşdirmə təqdim edir: "I. Azərbaycan ədəbi dilinin təşəkkülü dövrü (qədim dövrlərdən XIII əsrə qədər). II. Azərbaycan ədəbi dilinin ümumxalq dili əsasında formalaşması və inkişafı dövrü (XIII əsrdən XVII əsrə qədər). III. Azərbaycan ədəbi dilinin milli dil əsasında formalaşması və inkişafı dövrü (XVII əsrdən bu günə qədər)." (Xudiyev, 1995, s. 4).

Müəllif Azərbaycan ədəbi dilinin təşəkkülü dedikdə həm diferensiasiya (Azərbaycan türkcəsinin ümumi türkcədən "ayrılması"), həm də inteqrasiya ("yerli" qıpçaq və "gəlmə" oğuz tayfa dillərinin "birləşməsi") prosesini, daha doğrusu, həmin proseslərin qarşılıqlı əlaqəsini nəzərdə tutur. Azərbaycan ədəbi dilinin ümuxalq dili əsasında formalaşması və inkişafı dövrünü isə 2 mərhələyə ayırır: 1.XIII-XIV əsrlər; 2.XV-XVI əsrlər. Azərbaycan ədəbi dilinin milli dil əsasında

formalaşması və inkişafı dövrünü isə aşağıdakı mərhələlərə ayırır: 1.XVIIXVIII əsrlər; 2.XIX əsr; 3.XX əsrin əvvəlləri; 4.XX əsrin 20-30-cu illərindən sonrakı mərhələ (Xudiyev, 1995, s. 4–5).

A.Axundov Azərbaycan ədəbi dilinin inkişaf tarixi barədə yazır: "Azərbaycan ədəbi dili öz inkişaf tarixində iki böyük dövr keçmişdir: XIII-XVII əsrlərdəki Azərbaycan ədəbi dili və XVIII əsrdən indiyədək mövcud olan Azərbaycan ədəbi dili. Məlum olduğu üzrə, hər iki dövrün ədəbi dili arasında istər leksik, istərsə də fonetik və qrammatik cəhətdən ciddi fərqlər vardır və onlar daha çox dilxarici amillərlə bağlıdır" (Axundov, 1990, s. 99).

Hər bir ədəbi dilin öz milli bünövrəsi əsasında inkişaf etdiyini, milli bünövrəyə bağlılığın və ondan qidalanmağın dilin varlığını əks etdirən başlıca şərt olduğunu qeyd edən A.Qurbanov Azərbaycan ədəbi dilinin inkişaf yollarını belə müəyyənləşdirmişdir: "1) Ədəbi dilin formalaşması və tədricən inkişafı dövrü (XVIII əsrin sonuna kimi); 2) Ədəbi dilin tam sərbəstləşməsi dövrü (XIX əsr və XX əsrin əvvəllərində); 3) Ədəbi dilin sürətli inkişaf dövrü (XX əsrin II-IV rüblərində) (Qurbanov, 2004, s. 143).

T.Hacıyev qeyd edir ki, ədəbi dil tarixini müxtəlif prinsiplərə görə dövrləşdirmək olar və müxtəlif prinsiplər üzrə dövrləşdirmə təcrübələri də var. Ədəbi dil anlayışında, yazı mühüm faktordur... Eyni zamanda bu təsnifatda xalqın keçdiyi təşəkkül və inkişaf mərhələləri, bu mərhələlərdə cəmiyyətin yetkinlik dərəcəsi, cəmiyyətin və dövlətçiliyin dilə münasibətinin mədəni təzahürü nəzərə alınmalıdır. Çünki bunların hamısının dilə və üslublara təsiri var. Bu baxımdan müəllif Azərbaycan-türk ədəbi dilinin tarixini iki dövrə ayırmağı daha münasib hesab edir: "1.Yazıyaqədərki dövr bütövlükdə təşəkkül tapmış Azərbaycan xalq dili tarixinin təxminən e.ə. II əsrdən eramızın VI əsrinə qədərini əhatə edir; 2.Yazılı dövr. Ədəbi dilimizin 2-ci dövrü bir neçə mərhələdən ibarətdir: 1) VII-XII əsrlər - "Dədə Qorqud kitabı"ndan Həsənoğluya qədər; 2) XIII-XVI - divan ədəbiyyatı dilinin aparıcı dil kimi fəaliyyəti mərhələsi. Bu mərhələ iki pillədə davam edir: a) XIII-XIV əsrlər - divan ədəbiyyatı dilinin başlanğıcı, ədəbi dilin Nəsimi yekunu; b) XV-XVI əsrlər - divan ədəbiyyatı dilinin zirvə mərhələsi, ədəbi dilin Füzuli yekunu - milli ədəbi dilin müəyyənləşməsi; 3) Milli ədəbi dilin yeni mərhələsi - XVII-XXI əsrlər. Bu mərhələ üç pillədən ibarətdir: a) XVII-XVIII əsrlər - normada xəlqiləşmə, realist ədəbiyyatın dilinin aparıcı mövqeyi mərhələsi; b) XIX-XX əsrlər - üslubların yenidən təşkili; c) üslubların yenidən sabitləşməsi, müasir ədəbi dil - XX əsrin 30-cu illərindən sonrakı dövr." (Hacıyev, 2012, s. 75, 90).

"Azərbaycan ədəbi dilinin inkişaf tarixini iki dövrə bölmək daha məqsədəuyğundur: 1.Azərbaycan ədəbi dilinin milli dilə qədər inkişaf dövrü; 2.Milli dil yaranandan sonrakı inkişaf dövrü" (Azərbaycan ədəbi dil tarixi, 2007, s. 51). A.Axundov Azərbaycan ədəbi dilinin inkişaf tarixində iki dövr ayırmışdır: "1.Əski Azərbaycan dili; 2.Yeni Azərbaycan dili". Birinci dövrü iki mərhələyə

ayırmışdır: "1.Əski Azərbaycan dilinin yaranması (XIII-XIV əsrlər); 2.Əski Azərbaycan dilinin sonrakı inkişafı (XV-XVII əsrlər)" (Axundov, 2003, s. 359).

Yeni Azərbaycan dili dövrünü isə dörd mərhələyə ayırmışdır: "1.Ədəbi dilin xəlqiləşməsi dövrü (XVIII); 2.Milli dilin yaranması və inkişafı dövrü (XIX-XX əsrlər); 3.Sovet dövrü (1920-1990); 4.Çağdaş mərhələsi" (Axundov, 2003, s. 364). Ədəbi dilin inkişaf tarixini öyrəndiyimiz mənbələr həmin dilə məxsus yazılı abidələrdir. Milli dövrdə ədəbi dillərin inkişafının öyrənilməsi üçün ədəbi dil ilə bədii ədəbiyyatın dilinin tarixən bir-birinə qarşılıqlı təsiri məsələsi çox mürəkkəb məsələdir. Ədəbi dil və bədii əsərlərin dili anlayışlarının sərhədləri, ədəbi dillə bədii əsərlərin dilinin qarşılıqlı təsir formaları hələ ki dəqiq müəyyənləşdirilməmişdir.

Azərbaycan ədəbi dilinin mənbələri

Ədəbi dilin öyrənilməsi ədəbiyyatın öyrənilməsi ilə sıx bağlıdır. Ayrı-ayrı tarixi dövrlərdəki ədəbi dil haqqında təsəvvürümüz yalnız bədii əsərlərin dilinə əsasən formalaşdığı üçün, ədəbi dilin mənbələri kimi onları qəbul etmək məcburiyyətindəyik. Azərbaycan ədəbi dilinin mənbələri dedikdə, adətən aşağıdakı yazılı abidələr nəzərdə tutulur: İ.Həsənoğlunun qəzəlləri (XIII əsr), "DastaniƏhməd Hərami" (XIII əsr), Əlinin "Qisseyi-Yusif" əsəri (XIII-XIV əsrlər), M.Zəririn "Yusif və Züleyxa" əsəri (XIV əsr), Qazi Bürhanəddinin (XIV əsr), Yusif Məddahın (XIV əsr), İmadəddin Nəsiminin (XIV əsr), Mirzə Cahanşah Həqiqinin (XV əsr), Xəlilinin (XV əsr), Hamidinin (XV əsr), Hidayətin (XV əsr), Şeyx İbrahim Gülşəninin (XV əsr), Kişvərinin (XV əsr), Bəsirinin (XV-XVI əsrlər), Həbibinin (XV-XVI əsrlər), Şah İsmayıl Xətayinin (XVI əsr), Xəlifənin (XVI əsr), Sürurinin (XV-XVI əsrlər), Şahinin (XV-XVI əsrlər), Həqirinin (XVI əsr), Məhəmməd Füzulinin (XVI əsr), Fəzlinin (XVI əsr), Rəhmətinin (XVI əsr), M.Əmaninin (XVI əsr), Saib Təbrizinin (XVII əsr), Qövsi Təbrizinin (XVII əsr), Molla Pənah Vaqifin (XVIII əsr), Molla Vəli Vidadinin (XVIII), Mirzə Fətəli Axundovun (XIX əsr) yaradıcılığı və s. Bədii əsərlərlə yanaşı, Hüsaməddin Xoyinin "TöhfeyiHüsam", Cəmaləddin ibn Mühənnanın "Hülyət ül-insan və hilbətül-lisan" (XIII əsrin sonu - XIV əsrin əvvəlləri), Əbu Həyyanın "Kitab əl-idrak li lisan əl-ətrak" (1313), Hinduşah Naxçıvaninin "Sihah əl-əcəm" (XIV əsrin ortaları) və digərlərinin tərcümə lüğətləri də bu mənbələr sırasındadır.

Bildiyimiz kimi, hər hansı dilin tarixinin öyrənilməsi üçün yazılı abidələr birbaşa mənbələrdir. Ancaq yazılı abidələrin də özünə görə müəyyən çatışmayan cəhətləri vardır ki, bunlar bu və ya digər dil hadisəsinin tədqiqi zamanı tədqiqatçıdan çox ehtiyatlı olmağı tələb edir. Bu vəziyyət digər bir vacib və kifayət qədər etibarlı mənbəyə – tədqiq olunan dilin dialektlərinə müraciət etməyə məcbur edir. Xüsusən də vaxtilə yazısı olmayan və ya yazılı abidələri çox az qorunub saxlanan dillər üçün dialekt məlumatları xüsusi əhəmiyyət kəsb edir. Lakin hətta dil

çoxsaylı yazılı abidələrə malikdirsə belə, o zaman da dialektlər öz dəyərini itirmir, əksinə tədqiqatçının əsaslana biləcəyi etibarlı mənbəyə çevrilir.

Ədəbi dil və dialektlər

Məlum olduğu kimi, ədəbi dil və onun dialektləri bir-biriləri ilə bilavasitə əlaqəlidirlər. Ədəbi dil anlayışının özü, mahiyyətcə çoxplanlıdır, çoxşaxəlidir və adətən, onu dialektlərlə qarşılaşdırırlar və belə hesab edirlər ki, bu qarşılaşdırılmada ədəbi dilin cizgiləri meydana çıxır. Ədəbi dil vahiddir, onun gücü də məhz bundadır. Ədəbi dil ümumi dildir, bu xüsusiyyəti ilə o, dialekt müxtəlifliyinə qarşı durur.

Dilçilikdə qəbul olunmuş bir fikir mövcuddur ki, ədəbi dilin əsasında həmin dilin müəyyən dialekti dayanır. Tədricən həmin dialektdən məhdud xarakterli xüsusiyyətlər çıxarılır, digər dialektlərin məqbul xüsusiyyətləri seçilərək ədəbi dilə gətirilir və beləliklə, ədəbi dil daha da zənginləşir. Hətta rus dilçiliyində də bu fikrin tərəfdarları vardır ki, ədəbi dil bir dialektə deyil, ümumxalq dilinə əsaslanır: "Öz inkişafı prosesində ədəbi dil getgedə daha çox hansısa bir dialektə söykənmir, bütövlükdə ümumxalq dili üzərində bazalaşır. Bu, dilin elə bir mərhələsində xüsusilə nəzərə çarpır ki, tayfa dilləri əsasında xalq dili yaranır və təbii olaraq, ayrıca götürülmüş dialektin rolu və onun ədəbi dilə münasibəti əsaslı şəkildə dəyişir. Buna görə də rus ədəbi dili tarixi qarşısında duran ən vacib məsələlər sırasında, onun inkişafının hansı mərhələlərində dialektizmlərin ədəbi leksikanı artıran mənbə olduğunu müəyyənləşdirmək dayanır" (Efimov, 1967, s. 13).

R.A.Budaqov (1967) qeyd edir ki, əgər bu və ya digər ədəbi dilin hansı dialekt əsasında inkişaf etməyə başlaması barədə sual verilsə, cavab ikili olacaqdır. Ölkələrin bir qismində paytaxtın dialekti gələcək ədəbi dilin əsasını təşkil edir, digərlərində – proses daha çox mürəkkəb olur və paytaxtın önə çıxması hələ onun dialektinin də önə çıxmasını təmin etmir.

Ədəbi dil problemlərini araşdıran V.V.Vinoqradov V.M.Jirmunskinin "Milli dil və sosial dialektlər" əsərinə istinadən fərqli fikir irəli sürür: "Milli dilin əsasında, adətən, milli dövlətin başlıca iqtisadi, siyasi və mədəni mərkəzinin öz mənşəyinə görə qarışıq dialekti dayanır - Londonun, Parisin, Madridin, Moskvanın və s. dili." O qeyd edir ki, İtaliyada italyan milli dilinin yazılı forması XIV əsrin birinci yarısında Florensiya danışığı əsasında, Fransada XII əsrin sonlarında Paris dialekti əsasında, İngiltərədə XIV-XV əsrlərdə London dialekti əsasında formalaşmışdır (Vinoqradov, 1967, s. 13–14, 16–17).

Ədəbi dilin əsasında bu və ya digər dialektin dayandığını qeyd etsək də, müasir Azərbaycan ədəbi dili özünün heç bir dialekti ilə tam eyniyyət təşkil etmir. M.Şirəliyev Şamaxı-Bakı dialektinin Azərbaycan milli ədəbi dilinin əsasında durdu-

ğunu göstərmişdir. Lakin bu fikirlə razılaşmayan dilçilər olmuşdur. M.Cahangirov yazır: "Əsas dialekt" müddəasına görə, öz "aparıcı" rolu və səkkiz "ünsürü" ilə "Şamaxı-Bakı dialekti Azərbaycan milli ədəbi dilinin əsasında dur"muşdur... Azərbaycan ədəbi dili milli təşəkkül mərhələsinədək (əsasən "xalq dili dövrünün" son mərhələsi) heç də təkcə "Şirvan qrupu dialektlərinə" aid edilən altı fonetik-morfoloji "ünsür" əsasında yox, həmçinin əksər qismi ədəbi dildə, hb. genişişlək canlı danışıq dilində qədimlərdən istifadəli olan daha çox (onlarca) "ünsürlər" əsasında inkişaf etmişdir. Bu altı "ünsür" təkcə "Şirvan qrupu dialektlərinə" aid olmaqla qalmayıb, eyni zamanda digər "qrup dialektlərin" ayrı-ayrı şivələrində, hətta qədim abidələrdə belə, az və ya çox, bu və ya digər şəkildə işlək olmuşdur" (Cahangirov, 1978, s. 145,157).

Leksika anlayışının təyinatı klassik ənənəvi dilçiliyə gedib çıxaraq dilin üç fərqli aspektinin qarşılaşdırılması və fərqləndirilməsinə əsaslanır: səs tərkibi, leksik və qrammatik vasitələr. Lüğətlərdə sistemləşdirilən və dilin lüğət tərkibi adlandırılan leksik vasitələr, səs və qrammatik vasitələrlə birlikdə hər hansı bir dilin əsasını təşkil edir və bu mənada onun universal əlamətlərinə aid edilir. Eyni zamanda leksik vahidlərdəki fərq və onların məna strukturunun xarakteri və semantik kateqoriyalar hər bir dilin əsas fərqləndirici əlamətlərini təşkil edir.

Leksik vasitə olan söz dilin digər işarələri sırasında daha əsasdır, çünki o, bir neçə aspektdə semasioloji dəyərə malikdir. Söz ümumiləşdirir, adlandırır, işarə edir, söz məlumat verir və danışanın, dinləyənin müəyyən hisslərini ifadə edir. Söz işarəsinin bu xüsusiyyətləri haqqında S.O.Karsevskiy yazır ki, əgər işarələr hərəkətsiz olsaydı və onlardan hər biri yalnız bir funksiyanı yerinə yetirsəydi, dil sadə etiketlərin toplusu olardı. Lakin işarələrinin o dərəcədə hərəkətli olduğu dili də təsəvvür etmək mümkün deyil ki, konkret situasiyalardan kənarda heç bir şey ifadə etməsinlər. Burdan belə bir nəticə çıxır ki, linqvistik işarənin təbiəti eyni zamanda həm dəyişməz, həm də hərəkətli olmalıdır. Konkret situasiyaya uyğunlaşmaq xüsusiyyəti olan işarə yalnız qismən dəyişə bilər; və özünün digər hissəsinin hərəkətsizliyi sayəsində işarənin öz-özünə uyğun olaraq qalması lazımdır. Lakin sözdən hamı eyni dərəcədə istifadə etmir, çünki eyni dildə danışan insanların savadı, biliyi, dünyagörüşü, peşəsi, sənəti fərqlidir və bu səbəbdən onların söz ehtiyatı da çox müxtəlifdir. Hər hansı xalqın nümayəndələrinin bir qismi ədəbi dildə danışırsa, bir qismi də həmin dilin ayrıayrı dialekt və şivələrində danışır.

Nəticə

Müasir dilçilikdə dillərin və dialektlərin yaranma yolları haqqında iki əsas fikir geniş yayılmışdır. Dillər və dialektlər diferensiasiya və inteqrasiya yolu ilə yarana bilər. Diferensiasiyanın mahiyyəti ondan ibarətdir ki, ilkin olaraq az və ya çox dərəcədə yekcins bir dil vahidinin dağılması nəticəsində yeni dil vahidləri

meydana gəlir. Dil vahidlərinin dağılması prosesi, məlum səbəblərlə şərtlənən tam təbii haldır. Dağılmanın əsas səbəbi öncədən vahid dil bütövünün ayrı-ayrı hissələrinin izolyasiya olunmasıdır. Bu izolyasiya hər hansı tayfanın və ya xalqın məskunlaşdığı arealdan uzaq olan ərazilərə həmin tayfanın və ya xalqın bir hissəsinin miqrasiyası yolu ilə yaradıla bilər. Tarixdə belə miqrasiyalara nümunələr məlumdur. Məsələn, 1055-ci ildən başlayaraq bayat tayfalarının İraq ərazisinə köçürülməsi prosesi başlanmışdır... Elmi mənbələrdə türkmanların ana dili olaraq Azərbaycan dilinin Cənubi Azərbaycan ləhcəsində (əfşar ləhcəsində) danışdıqları qeyd olunur. Hal-hazırda Kərkük türkləri və ya İraq türkmanları adlandırılan və sayı iki milyona çatan əhalinin xüsusi dialekti formalaşmışdır. Və ya vaxtilə Əfqanıstan ərazisinə köçürülən azərbaycanlıların da xüsusi dialekti formalaşmışdır. Əfqanıstanda yaşayan əfşarların öz dillərini azəri adlandırması da maraqlı faktdır. Yeni dil birlikləri inteqrasiya yolu ilə də yarana bilər. Lakin inteqrasiya yolu ilə yeni dillərin yaranması məsələsi ölçüyəgəlməz dərəcədə mürəkkəbdir və onun nəzəri cəhətdən dərk olunması bir sıra mürəkkəb məsələlərin həlli ilə əlaqəlidir. Müasir dialektologiya iki və ya daha çox dialektin qarışması nəticəsində yaranmış qarışıq dialektlərin mövcud olması barədə kifayət qədər etibarlı məlumatlara malikdir. Tədqiq etdiyimiz Qərbi Azərbaycan şivələrinin (Sadıqova, 2018) Azərbaycan dilinin qərb və cənub qrupu dialekt və şivələrinin ortaq xüsusiyyətləri əsasında formalaşması fikri qəbul olunmuşdur. Azərbaycan dilçiliyində E.Əzizov, H.Mirzəyev, İ.Bayramov və b. bu fikrin tərəfdarlarıdır.

Ədəbiyyat

Axundov, A. (1990). Ümumi dilçilik. Elm.

Axundov, A. (2003). Dil və ədəbiyyat. Gənclik.

Azərbaycan ədəbi dil tarixi (4 cilddə, C. 1, XIII–XVI əsrlər). (2007). Şərq-Qərb.

Budaqov, R. A. (1967). Literaturnye yazyki i yazykovye stili. Vysshaya shkola.

Cahangirov, M. (1978). Azərbaycan milli ədəbi dilinin təşəkkülü. Elm.

Chikobava, A. S. (1953). Vvedenie v yazykoznanie. Nauka.

Dəmirçizadə, Ə. (1979). Azərbaycan ədəbi dili tarixi. Maarif.

Efimov, A. I. (1967). Istoriya russkogo literaturnogo yazyka. Vysshaya shkola.

Hacıyev, T. (2012). Azərbaycan ədəbi dilinin tarixi (I hissə). Elm.

Obshchee yazykoznanie: Formy sushchestvovaniya, funktsii, istoriya yazyka. (1970). Nauka.

Qurbanov, A. (2004). Ümumi dilçilik (2 cilddə, C. 2). Nurlan.

Sadıqova, S. (2018). Azərbaycan ədəbi dilinin arxaik morfemləri. ADPU nəşriyyatı.

Sovremennyi russkii yazyk: Chast' 1. Leksika, fonetika, slovoobrazovanie, morfologiya. (1976). Vysshaya shkola.

Sovremennyi tatarskii literaturnyi yazyk: Leksikologiya, fonetika, morfologiya. (1969). Nauka.

Stepanov, Yu. S. (1974). Osnovy obshchego yazykoznaniya. Nauka.

Vinogradov, V. V. (1967). Problemy literaturnykh yazykov i zakonomernostei ikh obrazovaniya i razvitiya. Nauka.

Xudiyev, N. (1995). Azərbaycan ədəbi dili tarixi. Maarif.